# İki qardaş xalqın birlik rəmzi



*Nuru Paşa at belində*
*Türkiyədən - Qarsdan gəlir.*
*"Azərbaycan" deyə-deyə,*
*Yaralanmış aslan gəlir...*

15 sentyabr 1918-ci il Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun Bakını azad etməsi, Azərbaycanın müstəqillik mücadiləsində möhtəşəm bir mərhələdir. Bu hadisə iki qardaş dövlət arasında birlik və həmrəylik rəmzi kimi qəbul olunur. İki xalq arasındakı tarixi və mədəni bağlar, bu gün də eyni coşqu və dostluq ruhu ilə davam edir. Nuru Paşanın və Qafqaz İslam Ordusunun xidmətləri Azərbaycanın müstəqillik mücadiləsinin bir parçası kimi yüksək qiymətləndirilir.



Ənvər Paşanın qardaşı Nuru Paşa (Nuru Killigil) 1890-cı ildə İstanbulda anadan olub, İstanbulda böyüyüb və ilk hərbi təhsilini də orada alıb. 1906-cı ildə Quru Qoşunları Məktəbinə daxil olub və 1909-cu ildən sonra Osmanlı ordusunda zabit kimi fəaliyyətə başlayıb. 1911-ci ildə Hərbi Akademiyanı tamamladıqdan sonra müxtəlif hərbi vəzifələrdə xidmət edib. Nuru Paşa real olaraq "paşa" (general) rütbəsinə malik olmayıb, lakin onun Qafqaz İslam Ordusunun komandanı təyin olunması ilə bağlı xüsusi bir vəziyyət yaranıb. O zaman Osmanlı İmperatorluğunun sultanı tərəfindən Nuru Paşaya fəxri olaraq "feriq" (general-leytenant) rütbəsi verilib. Bu, onun Azərbaycanda və Qafqaz bölgəsində böyük bir hərbi qüvvəyə komandanlıq etməsi üçün lazım idi. 1911-1912-ci illərdə Nuru Paşa Trablusqərb cəbhəsində, yəni Liviyada, İtaliya qoşunlarına qarşı aparılan döyüşlərdə iştirak edib. Bu döyüşlərdə cəbhə komandanı kimi göstərdiyi qətiyyət və şücaət onun hərbi nüfuzunu artırıb. Trablusqərbdəki xidmətləri nəticəsində Nuru Paşa, döyüşlərdəki şücaətinə görə bir sıra mükafatlarla təltif olunub.





15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakıda



15 sentyabr 1918-ci il. Q

Birinci Dünya müharibəsinin sonunda Azərbaycanı işğal edən rus-erməni qoşunları mart hadisələri kimi tanınan faciədə müsəlmanlara qarşı qırğınlar törətdikdən sonra Qafqaz İslam Ordusu bölgənin işğaldan azad edilməsi əməliyyatına başlayıb. Bu ordunun qarşısını almaq və rus-erməni qoşunlarına kömək etmək üçün ingilislər Bakıya dəstə göndəriblər. Amma Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu böyük şücaət göstərərək ingilisləri məğlub edib. 1918-ci il sentyabrın 15-də Bakının azad olunmasından sonra osmanlıların bir dəstəsi Dağıstana gedərək oranı rus işğalından xilas edib. Lakin Suriya cəbhəsində Liman fon Sanders komandanlığında Osmanlı İldırım Ordu Qrupunun ingilis ordusuna qarşı məğlubiyyəti nəticəsində Mudros razılaşması bağlandı. Moskva müqaviləsindən sonra Azərbaycan yenidən rəsmən rusların işğalı altına düşdü. Osmanlı isə məcburən Bakını tərk etməli oldu və Qafqaz İslam Ordusu dağıldı. 1921-ci il mart ayının 12-də Türkiyə Böyük Millət Məclisi tərəfindən Ənvər Paşa və Nuru Paşanın Anadoluya gəlməsini qadağan edən qərar qəbul olundu. Bu qərarın səbəbləri siyasi və hərbi vəziyyəti əhatə edirdi. Ənvər Paşa Osmanlı dövrünün tanınmış hərbi liderlərindən idi, lakin onun siyasi fəaliyyəti və müttəfiqləri ilə əlaqələri yeni dövrdə mübahisəli hesab edilirdi. Bundan sonra bir müddət Almaniyada yaşayan Nuru Killigil 1938-ci ildə Türkiyəyə qayıdıb Zeytinburnunda koks satışı ilə məşğul olan şirkət aldı və onu metal məmulatları fabrikinə çevirərək silah-sursat istehsal etməyə başladı. O, 1941-ci ildə Ankarada Almaniya səfiri Franz von Papen ilə görüşür və Türkiyədə Turançılıq hərəkatına gizli dəstək verir. Nuru Killigilin fikirləri Almaniya Xarici İşlər Nazirliyinin Türkiyə işləri üzrə müşaviri Ernest Vorman tərəfindən sənədə çevrildi. Nuru Paşa Almaniyada Turançılıq məsələsinin və Sovet Şərqi Türküstan alayının qurulmasında öncülük edib. O, Tatarıstana qədər uzanan bölgədə yaşayan bütün türklərin Türkiyə ilə inteqrasiya edəcəyini proqnozlaşdırmışdı. Bu səbəbdən, Türkiyə Almaniya ilə birlikdə Sovet İttifaqına qarşı vuruşmalı və almanlar türk əsilli sovet əsirlərindən ordu qurub Türkiyənin komandanlığına verməli idi. Almanların bu fikirlərlə bağlı şübhələrini aradan qaldırmaq üçün Osmanlı ordusundakı zabitlərin əksəriyyətinin bu fikirləri bölüşdüyünü, hökumətin bu danışıqlardan xəbərdar olduğunu və ictimaiyyətin də bunun tərəfdarı olduğunu iddia etdi. Nuru Killigil daha sonra fabrikini genişləndirərək Sütlücəyə köçür. Burada o, yeni mühərriklər və maşınlarla bərabər minaatan və minaatan mərmiləri istehsal etməyə başladı. Bir müddət sonra fabrikinin silah istehsal etməyəcəyini bəyan etsə də, istehsal gizli şəkildə həyata keçirilir. 1944-cü ilin sonlarına doğru Almaniyanın müharibəni uduzduğu aydınlaşınca İsmət İnönü və Türkiyə Cümhuriyyəti hökuməti alman tərəfdarlarına qarşı sərt tədbirlər görməyə başlayır. 2 mart 1949-cu ildə fabrikdə ardıcıl üç partlayış baş verdi. Kimya fabrikində partlayış zamanı oradakı silah-sursat anbarına yayılan yanğın sursatların partlamasına səbəb olub. Zavodun ərazisi dərhal mühasirəyə alınıb. Bunun ardınca Türkiyə Cümhuriyyətinin daxili işlər naziri Ankaradan gələrək şəxsən istintaqda iştirak edib. Partlayış nəticəsində Nuru Killigil də daxil olmaqla 27 nəfər həlak olub. Nuru Paşanın cəsədi isə uzun müddət davam edən axtarışlara baxmayaraq, tapılmayıb və boş tabutla dəfn olunub. Partlayışın kim tərəfindən törədildiyi məlum deyil. Baş verənlərin siyasi təxribat olduğu da iddia edilir. Hadisə martın 18-də parlamentdə müzakirə olunarkən Türkiyədə ovaxtkı bəzi millət vəkilləri məsələni ört-basdır etməyə cəhd göstərib. Martın 23-də baş nazir parlamentdə bəyanatla çıxış edib. Bu bəyanatlardan sonra keçirilən qapalı iclasda nə deyildiyini heç kim bilməyib. Məlum olan o idi ki, danışıqlar aktualdır. Nuru Killigilin məhdud sayda istehsal etdiyi 9 mm diametrli yarı avtomatik tapança var idi. Bu silah bir çox üstünlüklərinə görə zamanı qabaqlayırdı. Mükəmməl vəziyyətdə saxlanılan nümunə İstanbul hərbi muzeyindədir. Silah muzeyə Killigilin varisləri tərəfindən bağışlanıb və xüsusi qutuda təmiz vəziyyətdə saxlanılır.

**Tacir SADIQOV,**
**"Respublika".**